# Müştərək layihələrin icrası ilə bağlı 4 memorandum imzalanıb

İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin Bakıya səfəri çərçivəsində iki ölkə arasında dörd sənəd imzalanıb.

İmzalanma mərasimindən öncə Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevlə İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi ölkələrimiz arasında mövcud iqtisadi əlaqələrə və əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparıblar.

Nazir Şahin Mustafayev Azərbaycan və İran arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu, əməkdaşlığın bütün sahələrdə inkişaf etdiyini, əlaqələrimizin inkişafının Azərbaycan və İran prezidentlərinin siyasi iradəsinin göstəricisi olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 23-də İrana səfəri, səfər çərçivəsində keçirilən görüşlər və imzalanmış sənədlər ölkələrimiz arasında əlaqələrin inkişafına böyük stimul verib. Dünən Astara çayı üzərində təməli qoyulan dəmir yolu körpüsü də həmin səfərin uğurlu nəticələrindəndir. Ümumilikdə isə, Prezident İlham Əliyevin 2014-cü ilin aprelində İran İslam Respublikasına səfərindən sonra ölkələrimiz arasında 60-a yaxın qarşılıqlı səfər həyata keçirilib, 30-dan çox sənəd imzalanıb, Dövlət Komissiyasının iki iclası və bir sıra görüşlər təşkil olunub. Dövlət başçılarının son 2 ildə 6, son 2 ayda isə 2 görüşü keçirilib.

Nazir Şahin Mustafayev Mahmud Vaezini Azərbaycan-İran əlaqələrinin inkişafına verdiyi böyük töhfəyə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.

Qeyd olunub ki, Azərbaycan və İran arasında möhkəm müqavilə-hüquq bazası yaradılıb, iqtisadi sahədə 40-dan çox olmaqla indiyədək 120 sənəd imzalanıb. İran Azərbaycanın mühüm ticarət tərəfdaşlarındandır və təkcə 2016-cı ilin yanvar-mart aylarında ticarət dövriyyəsinin həcmi 53 faiz artıb. Hazırda Azərbaycanda 439 İran şirkəti fəaliyyət göstərir. Azərbaycan və İran arasında Dövlətlərarası Komissiya, müxtəlif sahələr üzrə işçi qrupları fəaliyyət göstərir, birgə biznes forum, işgüzar görüş və sərgilər təşkil olunur.



Hazırda ölkələrimiz arasında kənd təsərrüfatı, turizm, bankçılıq, əczaçılıq, nəqliyyat və s. sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində müvafiq işlər görülür. Bildirilib ki, SOCAR ilə İran Milli Neft Şirkəti və Qədir İnvestisiya Şirkəti arasında memorandumlar imzalanıb.

Nazir Şahin Mustafayev bildirib ki, Azərbaycan-İran əlaqələrinin vacib istiqamətlərindən olan nəqliyyat sahəsində əməkdaşlıq, o cümlədən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi əlaqələrimizin genişlənməsinə öz töhfəsini verəcək. Dəhlizin önəmli həlqələrindən olan Astara çayı üzərində dəmir yolu körpüsü də Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi, iqtisadi, ticarət və yükdaşımalar sahəsində əməkdaşlığın inkişafı baxımından əhəmiyyətlidir.

Görüşdə nazir Şahin Mustafayev Azərbaycan və İran arasında imzalanmış "Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının tikintisi və istismarı üzrə" və "Ordubad" və "Marazad" Su Elektrik stansiyalarının tikintisi və istismarı haqqında" sazişlərin tezliklə ratifikasiya edilməsinin əhəmiyyətini qeyd edib, elektrik enerjisinin satışı üzrə Çərçivə Sazişinin icrasının vacibliyini vurğulayıb.

İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi Azərbaycanın ali mükafatı ilə təltif olunmasına görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkür edib, ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdiyini, Azərbaycan-İran əlaqələrinin heç zaman bu qədər yüksək səviyyədə olmadığını vurğulayıb. Bildirilib ki, Şimal-Cənub Nəqliyyat Dəhlizi və bu dəhlizin vacib hissələrindən olan Astara çayı üzərində dəmir yolu körpüsü də Azərbaycan və İran arasında iqtisadi əməkdaşlığın, xüsusilə yükdaşımalar, turizm və ticarət əlaqələrinin genişlənməsi baxımından əhəmiyyətlidir. Mahmud Vaezi iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq perspektivlərinə dair fikirlərini də bölüşüb.

Sonra "Sumqayıt Kimya Sənaye Parkı" MMC, "Azərbaycan İnvestisiya Şirkəti" ASC, "Azərsun Holdinq" MMC, İranın "Iran Khodro" və "Darou Pakhsh" şirkətləri arasında Azərbaycanda avtomobil və dərman istehsalı sahəsində müştərək layihələrin icrası ilə bağlı 4 memorandum imzalanıb.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC, "Azərsun Holdinq" MMC və İranın "Darou Pakhsh" şirkəti arasında imzalanmış Azərbaycanda əczaçılıq məhsullarının beynəlxalq standartlara uyğun istehsalının təşkili haqqında Anlaşma Memorandumuna əsasən, birgə yeni müəssisə yaradılacaq. Bu müəssisəni "Azərbaycan İnvestisiya Şirkəti" ASC, "Azərsun Holdinq" MMC və "Darou Pakhsh" şirkəti birgə maliyyələşdirəcək. Müəssisədə ağrıkəsici, antibiotik və vitamin təyinatlı 52 adda dərman preparatlarının istehsalı nəzərdə tutulur. Dərman preparatları ilkin olaraq daxili bazar üçün nəzərdə tutulur. Müəssisənin Sumqayıt Kimya Sənaye Parkının ərazisində yaradılması planlaşdırılır.

"Sumqayıt Kimya Sənaye Parkı" MMC ilə İranın "Darou Pakhsh" şirkəti arasında imzalanmış Anlaşma Memorandumu əczaçılıq məhsullarının beynəlxalq standartlara uyğun istehsalı layihəsinin Sumqayıt Kimya Sənaye Parkının ərazisində həyata keçirilməsi ilə bağlıdır. Memoranduma uyğun olaraq, tərəflər əczaçılıq məhsullarının beynəlxalq standartlara uyğun istehsalı layihəsinin həyata keçirilməsi üçün "Darou Pakhsh", "Azərbaycan İnvestisiya Şirkəti" ASC və "Azərsun Holdinq" MMC-nin təsisçiliyi ilə yaradılacaq yeni şirkətin Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçməsi üçün lazımi prosedurları həyata keçirəcəklər.

Azərbaycanın "Azevrocar" MMC və İranın "İran Khadro" şirkəti arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, şirkətlər Azərbaycanda minik avtomobillərinin və ehtiyat hissələrinin birgə istehsalını həyata keçirəcəklər. İlkin olaraq layihə üzrə istehsal edilməsi məqsədəuyğun olan avtomobil modelləri müəyyənləşdiriləcək, sonra isə layihə üzrə Biznes Plan hazırlanacaq. Layihənin Neftçala Sənaye Məhəlləsində həyata keçirilməsi nəzərdə tutulur.

Tədbir çərçivəsində, həmçinin "Azərbaycan İnvestisiya Şirkəti" ASC və "Azevrocar" MMC arasında avtomobil və müvafiq ehtiyat hissələrinin istehsalı layihəsinin Neftçala Sənaye Məhəlləsində həyata keçirilməsi ilə bağlı Anlaşma Memorandumu imzalanıb. Memoranduma uyğun olaraq, "Azevrocar" şirkətinə Neftçala Sənaye Məhəlləsinin iştirakçısı statusunun verilməsi üçün şirkət müvafiq sənədləri hazırlayaraq AİŞ-ə təqdim edəcək. Bundan sonra isə layihənin Neftçala Sənaye Məhəlləsində həyata keçirilməsi üçün "Azevrocar" şirkətinə AİŞ tərəfindən sənaye məhəlləsinin iştirakçısı statusu veriləcək.

***AZƏRTAC***